# Prof. Rəşad Muradov

## Personal Information

**Email:** rashad_muradov@unec.edu.az
**Web:** https://avesis.unec.edu.az/rashad_muradov

**International Researcher IDs**
ScholarID: 00100512
ORCID: 0000-0003-2042-7194
Publons / Web Of Science ResearcherID: AAB-5562-2021
ScopusID: 57208032917

## Biography

Mən, Muradov Rəşad Şahbaz oğlu 1966-cı ildə Bakı şəhərində anadan olmuşam, milliyətcə azərbaycanlıyam. 1983-cü ildə 20 nömrəli orta məktəbi bitirərək, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı Institutunun «Uçot-iqtisad» fakultəsinə daxil olmuşam. 1985-1987-ci illərdə Sovet Ordusunda hərbi xidmətdə olmuşam.

1989-cu ildə N.A.Voznesenski adına Leninqrad Maliyyə - Iqtisad Institutunun Bakı filialının (indiki Azərbaycan Dövlət Iqtisad Universiteti) Uçot-iqtisad fakultəsini fərqlənmə diplomu ilə bitirərək «Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili» ixtisasına yiyələnmişəm. Həmin ildə mən M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin aspiranturasına («Siyasi iqtisad» ixtisası üzrə) daxil olmuş və 1992-ci ildə vaxtından xeyli əvvəl namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşəm.

Əmək fəaliyyətinə RSFSR-in Ali Təhsil Nazirliyinin təqdim etdiyi 155 №-li vəsiqəyə əsasən, gənc mütəxəssis kimi həmin institutun «Təsərrüfat fəaliyyətinin təhlili» kafedrasında laborant vəzifəsində başlamış, tezliklə rektorun təşəbbüsü və əmri ilə «Siyasi iqtisad» (indiki Iqtisadi nəzəriyyə) kafedrasına laborant vəzifəsinə keçirilmiş və 14 il ərzində əvvəlcə baş laborant, sonra baş müəllim və dosent vəzifələrində çalışmışam.

30 yanvar 2003-cü il tarixində Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının Iqtisadiyyatı və Təşkili Institutunda doktorluq dissertasiyasının müdafiəsi üzrə yaradılmış birdəfəlik ixtisaslaşdırılmış şurada doktorluq dissertasiyasını müdafiə etmiş və Ali Attestasiya Komissiyasının 09 iyul 2003-cü il tarixli qərarı ilə iqtisad elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşəm.

2003-cü il iyunun 20-dən rektorun 30/3 əmri ilə «Biznes Inzibatçılığı» və Türk Dünyası Işlətmə fakultələrində dərs yükü yerinə yetirmək üçün öz ştat vahidimlə «Idarəetmənin təşkili» kafedrasına dosent vəzifəsinə keçirilmiş, daha sonra (rektorun 19.01.2004-cü il tarixli 04/3 saylı əmri) universitetin Elmi Şurasında yekdilliklə həmin kafedranın professor vəzifəsinə seçilmişəm.

2003-cü il sentyabrın 1-dən rektorun 52/3 saylı əmrinə əsasən «Biznes inzibatçılığı» fakultəsinin dekan müavini vəzifəsinə təyin edilmiş və 17 noyabr 2007-ci ilədək «Biznes inzibatçılığı» fakultəsinin dekan müavini, sonra isə «Idarəetmənin təşkili» kafedrasının müdir əvəzi vəzifələrində çalışmışam.

2008-ci ilin sonlarından rektorun əmri ilə «Idarəetmənin təşkili» və «Biznesin təşkili» kafedralarının bazasında yeni yaradılmış «Biznes inzibatçılığı» kafedrasında professor vəzifəsində çalışmış və 2012-ci ilin yanvarın 27-dən rektorun 09/3 saylı əmrinə əsasən «Biznes inzibatçılığı» kafedrasının 0,5 ştat əvəzçiliklə professoru vəzifəsində saxlanılmaqla, «Biznes inzibatçılığı» fakultəsinin qiyabi təhsil üzrə dekan müavini vəzifəsinə təyin edilmişəm.

«Qiyabi təhsil alan tələbələrin köçürülməsi haqqında» Az.DIU-nun rektorunun 19.05.2014-cü il tarixli 43/3 saylı əmrinin icrası ilə əlaqədar olaraq 02 iyun 2014-cü il tarixli və 52/3 saylı əmrlə «Biznesin idarə edilməsi» kafedrasının tam ştat professoru vəzifəsinə keçirilmişəm.

Mən, əmək fəaliyyətimə başlayandan bu günədək ölkənin bir sıra ali məktəblərində saat hesabı qaydada tədris yükü aparmış, habelə Azərbaycan BPKIA və YHI-də, TASIS proqramının xətti ilə Irlandiya Respublikasının Dublin (1994-cü il) və Niderland Krallığının Amsterdam Universitetlərində (MBA proqramı üzrə- 1996-1998-ci illər) ixtisasımı artıraraq müvəffəqiyyətlə Biznes Inzibatçılığı Magistraturasını bitirmişəm.

2006-cı ilin aprel ayından 2011-ci ilin dekabrınadək Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Iqtisad və Hüquq elmləri üzrə ekspert şurasının, eyni zamanda ADIU-nun Elmi Şurasının üzvü olmuşam.

2008-ci il noyabrın 14-də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollegiyasının iclasında qəbul edilmiş yekdil qərarla (protokol № 16-R) mənə professor elmi adı verilmişdir (professor attestatı – PR №0847).

Hal-hazırda mən Azərbaycan Dövlət Iqtisad Universitetinin «Biznes və logistika" kafedrasının tam ştat professoru vəzifəsinə çalışıraraq, elmi-pedaqoji kadrların hazırlanmasında da yaxından iştirak edirəm. Bu vaxta kimi mən, 5 elmlər doktorunun rəsmi opponenti olmuş və 4 iqtisad elmləri üzrə fəlsəfə doktorunu hazırlamışam. Hal-hazırda 3 aspiranta, 3 dissertanta və 4 magistrə rəhbərlik edirəm.

Mən 122 elmi-metodiki əsərin müəllifiyəm ki, bunların da bir çoxu Azərbaycanın, Türkiyə Cümhuriyyətinin, Isveçin, Rusiya Federasiyasının, Belarus Respublikasının nüfuzlu nəşriyyatları tərəfindən çap olunmuşdur. Mən dissertasiya mövzusuna aid 65-dən çox elmi əsərin müəllifiyəm. Bunlardan aşağıdakıları qeud etmək olar:

1. «Iş qüvvəsinin təkrar istehsalı: nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər» (monoqrafiya), Bakı, 1995, (9,0 ç.v.);

2. «Müasir mərhələdə yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri» (Kollektiv monoqrafiya), Azərbaycan Respublikası EA-nın Iqtisadiyyat Institutu,«Elm» nəşriyyatı, Bakı, 1998, XVII fəsil, ISBN5-8066-0991;

3. «Müasir şəraitdə Azərbaycan Respublikasında əmək bazarı problemləri, (Monoqrafiya), Bakı, «Elm», 2000, (22,5 ç.v.);

4. «Postsosialist cəmiyyət və sosial siyasət: vəzifələr, ziddiyyətlər və mexanizmlər», Beynəlxalq kollektiv monoqrafiya,4 və 5-ci bölmələr, Moskva, 2001; (1,3 ç.v.- rus dilində);

5. «Azərbaycanda əmək bazarının formalaşmasının xüsusiyyətləri və məşğulluq siyasəti», «Mərkəzi Asiya və Qafqaz» ictimai-siyasi jurnal, Stokholm (Isveç), №4, 2001-Ingilis və rus dillərində;

6. «Postsovet dövründə Azərbaycanda əmək bazarı problemləri», «SSRI-nin süqutu: 10 il sonra» Beynəlxalq Elmi Konfrans, Moskva, 2001-ci il;

7. «Azərbaycanın iqtisadi potensialı və investisiya imkanları», «Türk Cümhuriyyətlərində yatırım imkanları» sempoziumu, Istanbul, 27-30 noyabr 2004;

8. «Azərbaycanda yatırım imkanları, xarici ticarət strategiyası və Türkiyə», 1-ci Beynəlxalq Türk-Asiya konqresi, Istanbul, 25-26 may 2006-cı il;

9. «Azərbaycanda institutsional islahatların təhlili və qiymətləndirilməsi», «AMEA-nın xəbərləri» jurnalı, (Iqtisadiyyat seriyası), «Elm», Bakı, 2006, № 1, səh. 55-64;

10. «Institutsional islahatların iqtisadi idarəetmədə rolu», «AMEA-nın xəbərləri» jurnalı, (Iqtisadiyyat seriyası), «Elm», Bakı, 2007, № 1,səh. 55-64.

11.«Demoqrafik proseslərin dəyişilməsi meylləri və onların əhalinin əmək quruluşunun formalaşmasına təsiri», AMEA-nın Iqtisadiyyat Institutu, Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu),1 buraxılış, Bakı, «Elm»-2008, səh.412-420.

12.«Respublikada ixtisaslı kadr hazırlanmasının nəzəri-metodoloji əsasları», AMEA-nın Iqtisadiyyat Institutu, Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu),1 buraxılış, Bakı, «Elm»-2009, səh.412-420.

13. «Azərbaycanda innovasiyalı cəmiyyət vz onun inkişafını şərtləndirən amillər»; AMEA-nın Iqtisadiyyat Institutu, Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu),1 buraxılış, Bakı, «Elm»-2010.

14. «Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin inkişafında Türkiyənin rolu»; Türk Dünyası Sosial Bilimlər Konqresi Tebliğleri, 1-ci cild, Istanbul, 2011

15.«Innovasiyalara əsaslanan iqtisadi inkişafda məşğulluğun təmin edilməsinin əsas istiqamətləri»; «AMEA-nın xəbərləri» jurnalı, (Humanitar və ictimai elmlər seriyası - Iqtisadiyyat), «Elm», Bakı, 2013

16. «Davamlı inkişaf konsepsiyası və korporativ sosial məsuliyyət»; "II Biznes inzibatçılığı və korporativ sosial məsuliyyət" Beynəlxalq elmi – praktik konfransın materialları, Bakı, 30 aprel 2014; səh.146

17."Milli innovasiya sistemi və əqli əməyin səmərəliliyinin yüksəldilməsi", AMEA-nın Iqtisadiyyat Institutu, Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu), 1-ci buraxılış, «Elm», Bakı, 2015

18."İnnovaiyalara əsaslanan iqtisadi inkişafda məşğulluğun yeni tipinin formalaşması", AMEA-nın Iqtisadiyyat Institutu, Elmi əsərlər,6-cı buraxılış, Bakı, «Elm»-2016

19."İnsan kapitalı, onun formalaşması, inkişafı və keyfiyyətcə qiymətləndirilməsinin elmi-nəzəri və konseptual əsasları", «AMEA-nın xəbərləri» jurnalı, Iqtisadiyyat seriyası, N-1, «Elm», Bakı, 2016

20."Demoqrafik işsizlik: yaranma səbəbləri, xüsusiyyətləri və nizamlanması istiqamətləri", «AMEA-nın xəbərləri» jurnalı, Iqtisadiyyat seriyası, N-2, «Elm», Bakı, 2016

21."Yoxsulluq, rifah və fərdlərin istehlaka meyilləri haqqında Enqus Ditonun konseptual baxışları", «AMEA-nın xəbərləri» jurnalı, Iqtisadiyyat seriyası, N-4, «Elm», Bakı, 2016

22."İnnovasiyalı məşğulluq: onu şərtləndirən amillər və göstəricilər", «AMEA-nın xəbərləri» jurnalı, Iqtisadiyyat seriyası, N-5, «Elm», Bakı, 2016

23."Davamlı inkişafın təmin edilməsində milli innovasiya sistemi və intellektual əməyin səmərəliliyi", AMEA-nın Iqtisadiyyat Institutu, Elmi əsərlər,1-ci buraxılış, Bakı, «Elm»-2017

24."İşsizlik və insan kapitalından istifadənin bəzi aktual məsələləri", AMEA-nın Iqtisadiyyat Institutu, Elmi əsərlər, 2-ci buraxılış, Bakı, «Elm»-2017

25. "Creating jobs of a new type of employment in modern times", Eurasian Academy of Sciences Eurasian Business & Economics Journal, Vol.14, 2018, p.p. 41-46.

26."Providing the continuity of development and intellectual responsibility", Eurasian Academy of Sciences Eurasian Business & Economics Journal, Vol.14, 2018, p.p.47-55.

27.“Unemployment and some issues of use of human capital”, ESD - 37-th International Scientific Conference on Economic and Social Development –"Socio Economic Problems of Sustainable Development", 14-15 february 2019, Baku, pp.539-547 (WoS)

28.“Study of human capital development: economic indicators and environmental quality”, “Ekoloji” (Quarterly Publish. International Journal), Vol.28, issue 107, pp. 495-503, (e107023), 2019 (WoS)

29.“Employment in the digital economy: “Work-4.0” – a model of labor and employment of the future”, The first International Conference on Modern Trends on Digital Economy: Modern Challenges and Real Opportunities, 13-14 February, 2020 / Baku, Azerbaijan

Mən müxtəlif vaxtlarda Türkiyədə, Rusiyada və digər MDB ölkələrində keçirilən elmi-nəzəri seminar və konfranslarda fəal iştirakımla özümü bir alim olmaqla yanaşı, həm də bacarıqlı bir təşkilatçı kimi də ictimaiyyətə tanıtmışam.

Mən daim öz obyektivliyim, işgüzarlığım və prinsipiallığım ilə seçilməklə yanaşı, hər bir vəziyyətdə humanistliyə üstünlük vermişəm. Universitetin və kafedranın ictimai həyatında yaxından iştirak edirəm. Heç bir mənəvi pozuntulara yol vermir və iş yoldaşları ilə səmimi münasibətlər qururam. Tələbələrə iqtisadi biliklərlə yanaşı, mənəvi, siyasi və digər bəşəri bilikləri təlqin etməyi özünə borc bilir və müəllimlik peşəsini ən şərəfli peşə hesab edirəm.

Ailəliyəm.

Həyat yoldaşım, Muradova Aynur Vələddin qızı, 1975-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Iqtisad Universitetinin «Xarici dillər» kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktorudur. AMEA-nın Dilçilik İnstitutunun doktorantıdır.

Oğlum, Muradlı Nicat Rəşad oğlu, 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur. AR Dövlət Məşğulluq Xidmətində çalışır. AR Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun fəlsəfə doktoru proqramının doktorantıdır.

Oğlum, Muradov Suad Rəşad oğlu, 1999-cu ildə Bakı şəhərində anadan olmuşdur. ABŞ-ın Sent-Luis Universitetində fəlsəfə doktoru proqramında çalışır.

## Research Areas

Economics, Labor Economics and Industrial Relations, Demography

## Articles Published in Other Journals

I. **APPLIED MARTIAL ARTS: THEORETICAL ASSUMPTIONS AND EMPIRICAL RESEARCH**
   Konikov S., Peredelsky A., Mamedov A., Muradov R., Donskikh K.
   Teoriya i Praktika Fizicheskoy Kultury, vol.2022, no.12, pp.23-25, 2022 (Scopus)

## Metrics

Publication: 1
Citation (WoS): 13

Citation (Scopus): 26
H-Index (WoS): 1
H-Index (Scopus): 2